# ƏLİYEV ƏSGƏR ƏLƏKBƏR OĞLU



Əsgər Əliyev 8 noyabr 1974-cü ildə Lənkəran rayonunun Ləj kəndində anadan olmuşdur. 1982-ci ildə birinci sinfə getmiş, 1989-cu ildə səkkizinci sinfi əla qiymətlərlə bitirmişdir. O, 1990-cı ildən təhsilini Haftoni qəsəbə orta məktəbində davam etdirmişdir. 1992-ci ildə orta məktəbi müvəffəqiyyətlə başa vurub Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsinə daxil olur. Əsgər Əliyev yüksək döyüş və siyasi hazırlığa malik bir kursant kimi hamının hörmətini qazanmışdı. 17 mart 1995-ci il hadisələri zamanı Əsgər Əliyev daxil olmaqla Milli Ordunun əsgərləri dövlət çevrilişinə cəhdin qarşısının alınmasında iştirak edirdi. O, yaranan qarşıdurmada ayağından yaralanmasına baxmayaraq dörd yaralını güllə yağışı altından çıxarmağa müvəffəq olmuşdu. Axırıncı yaralını xilas etmək istəyərkən Əsgər Əliyev ikinci dəfə gülləyə tuş gəlmiş, qəhrəmancasına həlak olmuşdur. Ləj kənd qəbristanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Əliyev Əsgər Ələkbər oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Lənkəran rayonunda adına park var. Büstü qoyulmuş, xatirə lövhəsi vurulmuşdur. Haftoni qəsəbə orta məktəbində “Xatirə guşəsi” yaradılmışdır.